AZƏRBAYCAN RESPUBLİKASI
BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ
SƏRƏNCAMI

№ 156 «11» dekabr 2020-ci il

**"Müsadirə edilmiş narkotik vasitələri, psixotrop maddələri və onların prekusorlarının məhvetmə komissiyası"nın tərkibinin təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri cənab Əli Həsənovun 10 yanvar 2012-ci il tarixli dərkənarı ilə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyasının 09.01.2012-ci il tarixli 01 saylı Sərəncamı ilə təsdiq edilmiş qaydalara uyğun fəaliyyət göstərən Müsadirə edilmiş narkotik vasitələri, psixotrop maddələri və onların prekusorlarının məhvetmə komissiyasının formalaşdırılması (əlavədə göstərilən şəxslərdən və formada) və nəticəsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinə məlumat verilməsi şəhər və rayon icra hakimiyyəti başçılarına tapşırılmışdır.

Qeyd olunanları və "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 4.7.6-cı, 4.15.10-cu və 6.8-ci bəndlərini nəzərə alaraq,

**qərara alıram:**

1. "Müsadirə edilmiş narkotik vasitələri, psixotrop maddələri və onların prekusorlarının məhvetmə komissiyası"nın tərkibi aşağıdakı qaydada təsdiq olunsun:

**Komissiyanın sədri:**

| | |
|---|---|
| Nağdəliyev Ramin Fərman oğlu | Binəqədi rayon prokurorunun müavini |

**Komissiyanın üzvləri:**

| | |
|---|---|
| Ağayev Tale Valeh oğlu | Binəqədi rayon məhkəməsinin məhkəmə iclas katibi |

CS CamScanner ilə taranıb

Hüseynov Yunis Fazil oğlu — Binəqədi Rayonu İcra Hakimiyyəti Aparatının Hüquq şöbəsinin müdiri

Fətəlizadə Nəsimi Mustafa oğlu — Dövlət Təhlükəsizliyi Xidmətinin Binəqədi Rayon İdarəsinin Əməliyyat şöbəsinin rəis müavini

Qasımov İsrail Qurban oğlu — Ə.D.Məlikov adına 6 saylı Birləşmiş Xəstəxananın poliklinika şöbəsinin baş həkimi

**Komissiyanın katibi:**

Qarayev Ruslan Əlövsət oğlu — Binəqədi Rayon Polis İdarəsinin Cinayət Axtarış Şöbəsinin əməliyyat müvəkkili, polis leytenantı

2. "Müsadirə edilmiş narkotik vasitələri, psixotrop maddələri və onların prekusorlarının məhvetmə komissiyası"nın tərkibinin təsdiq edilməsi barədə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 08.12.2017-ci il tarixli 269 saylı sərəncamı qüvvədən düşmüş hesab edilsin.

3. Sərəncamın surəti komissiyanın sədri və üzvlərinə göndərilsin.

Elxan Allahverdiyev

№ 132

**ƏSLİ İLƏ DÜZDÜR:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** — Sabir Əliyev

SƏNƏDLƏR ÜÇÜN

CamScanner ilə tarandı